Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi**

# Azərbaycan region ölkələri arasında yeni əməkdaşlıq formatını reallaşdırır

**Azərbaycanın xarici siyasətin yer alan mühüm məqamlardan biri də Cənubi Qafqaz ölkələri arasında əməkdaşlıq münasibətlərinin qurulması, regionda sabitliyin hökm sürməsidir.**

Ölkəmiz bu məsələni İkinci Qarabağ müharibəsindən sonra davamlı şəkildə gündəmə gətirib, bununla bağlı konkret addımlar da atıb. Bu vaxta qədər prosesə maneə olan əsas faktor ermənistanın üçtərəfli əməkdaşlığa əngəl yaratması idi. Amma artıq bu istiqamətdə də vəziyyət dəyişir. Hər halda Tiflisdə Azərbaycan, Gürcüstan və Ermənistan arasında xarici işlər nazirlərinin müavinləri səviyyəsində üçtərəfli görüşün baş tutması bu qənaətə gəlməyə əsas verir.

### Ümumi maraq daşıyan sahələrdə üçtərəfli əməkdaşlıq inkişaf etdiriləcək

Açıqlanan rəsmi məlumatlar görüşün müsbət atmosferdə baş tutduğunu göstərir. Belə ki, görüşdə iştirak edən Azərbaycan xarici işlər nazirinin müavini Elnur Məmmədov, Gürcüstanın xarici işlər nazirinin müavini Laşa Darsaliya və Ermənistan xarici işlər nazirinin müavini Vahan Kostanyan üç Cənubi Qafqaz ölkəsinin ilk üçtərəfli görüşünün keçirilməsini alqışlayıblar. Azərbaycan Xarici İşlər Nazirliyinin məlumatına əsasən, üç ölkənin birbirinin suverenliyinə və ərazi bütövlüyünə tam hörmətə əsaslanan əməkdaşlıq potensialının imkanlarından hələ də tam şəkildə istifadə olunmadığı bildirilib.

Görüşün məqsədi regionda davamlı inkişaf və firavanlığı təşviq etmək naminə ümumi maraq daşıyan sahələrdə üçtərəfli əməkdaşlığı inkişaf etdirmək olub. Bununla yanaşı, müvafiq sahələrdə əməkdaşlıq ümumi problemlərin həllinə dəstək ola və nəticədə Cənubi Qafqaz regionunun uzunmüddətli sabitliyinə, sürətli inkişafına təkan verə bilər. Açıq fikir mübadiləsi şəraitində keçən görüşdə potensial əməkdaşlıq sahələrinə dair baxışlar təqdim edilib.

Sonda iştirakçılar etimad quruculuğu və dialoqun daha yüksək səviyyəyə qaldırılmasına yol açmaq üçün ilkin mərhələ kimi qəbul edilən bu görüşün müsbət və konstruktiv atmosferdə keçdiyini qeyd ediblər. Gürcüstanın xarici işlər naziri Maka Boçorişvili qeyd edir ki, Tiflis ənənəvi olaraq hər iki qonşu ilə yaxşı münasibətlərə malikdir və regionda sülh gündəmini təşviq etmək niyyətindədir: "Bizim regionumuzda sülhün və sabitliyin təşviqi ilə bağlı səmimi niyyətlərimiz var. Ona görə də biz həmişə deyirik və indi də təkrar etmək istəyirəm ki, Ermənistan və Azərbaycan Gürcüstana arxalana bilər və biz regionumuzda dialoqu və əməkdaşlığı asanlaşdıracaq bütün mümkün vasitələri təqdim edəcəyik. Cənubi Qafqazın böyük potensialı var". Bundan əvvəl isə Gürcüstan prezidenti Mixail Kavelaşvili Azərbaycana səfər edib. Bu, onun dövlət başçısı kimi ilk xarici səfəri olub. Azərbaycanlı həmkarı İlham Əliyevlə görüşündə o, Bakı ilə İrəvan arasında sülh müqaviləsinin mətni üzrə razılaşmanı alqışlayıb: "Ümid edirik ki, yaxın gələcəkdə regionda uzunmüddətli və davamlı sülhün təmin edilməsi üçün əsas təkan olacaq tarixi müqavilə imzalanacaq. Sizi əmin etmək istəyirəm ki, Gürcüstan həmişə Cənubi Qafqazda dialoq, diplomatiya və dinc yanaşı yaşamanın tərəfdarı olub və bu kurs gələcəkdə də davam edəcək". O, ikinci xarici səfərini aprelin 28-29-da Ermənistana edəcək. Orada Kavelaşvili baş nazir Nikol Paşinyan, parlamentin sədri Alen Simonyan və bütün ermənilərin katolikosu II Qareginlə görüşəcək. Öz növbəsində Ermənistan hakimiyyəti Gürcüstanın sülhməramlı təşəbbüslərinə müsbət cavab verir. Burada onu da xatırladaq ki, Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan türkiyəli jurnalistlərə deyib ki, Ermənistanla Azərbaycan arasında onların sərhədində sülh müqaviləsi bağlana bilər. Eyni zamanda o, Ankaranın tərəflərin barışmasında mühüm rol oynaya biləcəyinə ümid edir. Xüsusilə, onun nöqteyi-nəzərindən, başlanğıc üçün Ermənistanla Türkiyə arasında münasibətləri tam tənzimləmək mümkündür. Ekspertlər hesab edir ki, ATƏT-in Minsk qrupunun buraxılmasından və Ermənistan Konstitusiyasından Azərbaycana ərazi iddiası ehtiva edən Müstəqillik Bəyannaməsinə istinadın çıxarılmasından sonra Bakı və İrəvan istər sərhəddə, istərsə də Tiflisdə sülh müqaviləsi imzalaya bilərlər. Gürcüstan həm Azərbaycanın, həm də Ermənistanın strateji tərəfdaşıdır. Azərbaycanın dünya bazarlarına nəql etdiyi neft və qazın əsas hissəsi Gürcüstandan keçir və hər iki ölkə Orta Dəhlizinin bir hissəsidir. Azərbaycan və Mərkəzi Asiya ölkələrinin Xəzər dənizi vasitəsilə Avropaya daşıyacağı "yaşıl enerji" həm də Gürcüstanın Ermənistana yaxın hissəsindən keçəcək. Azərbaycanın üçtərəfli əməkdaşlıq təkliflərinə qoşulacağı halda Ermənistan da perspektivdə bundan yararlana bilər.



### Əməkdaşlıq regional sabitliyi təmin edəcək əsas faktorlardan biri olacaq

Əməkdaşlığın ən əsas səbəblərindən biri regional sabitlikdir. Ermənistan və Azərbaycan arasında Qarabağ münaqişəsi kimi uzun müddət davam edən konflikt nəinki böyük insan iztirablarına səbəb olub, həm də ümumi region üçün iqtisadi inkişafı və xarici investisiyaları məhdudlaşdırıb. Sülh həssas və mürəkkəb məsələ olaraq qalsa da, dialoqun davam etdirilməsi, etimadın möhkəmləndirilməsi siyasəti dinc gələcək üçün zəmin yarada bilər. Sabit Cənubi Qafqaz hər üç dövlətin xeyrinə olacaq və onlara resursları hərbi xərclərdən sosial, təhsil və infrastrukturun inkişafına yönəltməyə imkan verəcək. Azərbaycan da məhz buna can atır.

Gürcü politoloq David Kartvelişvili bildirir ki, əməkdaşlıq şəraitində Cənubi Qafqaz ölkələri yeni dünya düzəninin yaranmasına hazırlaşmalıdırlar: "Dünya sürətlə dəyişir. Gələcək Cənubi Qafqazın təkcə enerji və nəqliyyat dəhlizinə deyil, Mumbayı Arxangelsklə, Tokionu Lissabonla birləşdirən tam hüquqlu yol kəsişməsinə çevrilməsini tələb edir. Regionumuzda sülh olmasa, belə bir şey olmayacaq. Bu kəsişməni qurmaq üçün Gürcüstan, Ermənistan və Azərbaycan səylərini birləşdirməli və Tiflisdə keçirilən üçtərəfli görüşlərdən daha yüksək səviyyədə görüşlərə başlamalıdırlar. Bu istiqamətdə addımlar atılır". Ermənistadakı Qafqaz İnstitutunun elmi işçisi Qrant Mikaelyan hesab edir ki, Gürcüstanın Ermənistanla Azərbaycan arasında vasitəçilik etməkdə maraqlı olmasının iki səbəbi var. Birincisi, bu yolla Qərb dövlətlərinin təşkil etdiyi diplomatik təcriddən çıxmağa çalışır. İkincisi, Tiflis Cənubi Qafqazda sülhün bərqərar olacağı təqdirdə öz mövqelərini ciddi şəkildə gücləndirəcəyinə ümid edir. Lakin o, Tiflisin Ermənistan-Azərbaycan münaqişəsinin həllində hər hansı ciddi rol oynaya biləcəyinə inanmı: "Gürcüstanın İrəvana və Bakıya təzyiq etmək səlahiyyəti yoxdur, özü də Türkiyə və Azərbaycandan asılıdır". Amma istənilən halda Azərbaycanın regionda əməkdaşlıq təşəbbüsü Ermənistan üçün yeni imlanlar açır. Burada nəzərə alırlar ki, xüsusən də mümkün iqtisadi əməkdaşlıq birgə səylərin əhəmiyyətli fayda verə biləcəyi digər mühüm sahədir. Cənubi Qafqaz həm Avropa, həm də Asiya bazarlarına yaxınlığı sayəsində əsas iqtisadi mərkəzə çevrilmək potensialına malikdir. Birgə infrastruktur layihələri, uyğunlaşdırılmış ticarət siyasətləri və Bakı-Tiflis-Qars dəmir yolu kimi regional nəqliyyat şəbəkələri kimi təşəbbüslər əlaqəni gücləndirə, tranzaksiya xərclərini azalda və ticarəti artıra bilər. Regional iqtisadi blok investisiyaları təşviq edə və malların, xidmətlərin və işçi qüvvəsinin axınını asanlaşdıra bilər. Enerji sahəsində əməkdaşlıq əlavə imkanlar təklif edir. Azərbaycan artıq əsas enerji ixracatçısıdır və onun Cənub Qaz Dəhlizi kimi boru kəmərləri Avropanın enerji təhlükəsizliyi üçün mühüm əhəmiyyət kəsb edir. Qonşu ölkələri enerji tranziti və paylanmasına cəlb etməklə, region daha inteqrasiya olunmuş və etibarlı enerji tərəfdaşına çevrilə bilər. Hər halda Azərbaycan bunun üçün imkanlar yaratmağa hazırdır.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**